UOT-811.512.162
Səhifə: 95-100
https://doi.org/10.59849/2663-8967.2026.2.95

Könül Sadıqova
MMU Hərbi Elmi Tədqiqat İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru
e-mail: ksadiqova112@gmail.com

AZƏRBAYCAN DİLİNİN HƏRBİ LEKSİKASININ FORMALAŞMASI VƏ QƏDİM TÜRK YAZILI ABİDƏLƏRİ

XÜLASƏ

Azərbaycan dilinin terminoloji sistemi cəmiyyətdə baş verən elmi-texniki tərəqqi və inkişafla uzlaşmaqla yeni leksik vahidlər hesabına daim dəyişikliyə uğrayır. Dilin daxilində, eləcə də dildən kənarda baş verən linqvistik proseslər yeni dil vahidlərinin yaranması ilə ümumişləklik qazanmasına, determinləşməsinə, habelə hər hansı leksik vahidin arxaikləşməsinə gətirib çıxarır. Hər bir halda istənilən leksik qatın və ya terminologiyanın əsasında arxaik vahidlər dayanır.

Məqalədə Azərbaycan dilində qədim türk yazılı abidələrinin zəngin leksikasının fonunda hərbi terminoloji sistemin əsasını təşkil edən arxaik fond araşdırılmış, hərbi məzmunu özündə əks etdirən dil vahidləri təhlil edilmişdir. Abidələrin hərbi leksik qatında, xüsusilə, qoşun növü, rütbə, vəzifə, titul və s. kimi müxtəlif tematik məzmunlu anlayışlar uzun tarixi inkişaf prosesində fonetik və semantik dəyişikliklərə məruz qalmışdır. Arxaik leksik fondda öz əksini tapmış bəzi terminlər dilimiz və digər türk dillərinin müasir leksik fondu üçün səciyyəvi olub, hərbi terminoloji vahidlər kimi uzun müddət öz işləkliyini itirməmişdir. Bir qisim hərbi məzmunlu dil vahidləri arxaikləşsə də, söz yaradıcılığı prosesində iştirak etmiş, terminoloji fondun zənginləşməsində müəyyən rol oynamışdır.

Açar sözlər: *hərbi terminologiya, yazılı abidələr, dil vahidi, semantik məna, terminoloji fond.*

Giriş: Bəşəriyyət və cəmiyyətdə baş verən proseslərlə bağlı ayrı-ayrı, eləcə də hərbi elmlər sahəsində terminlərin yaranması dilin terminoloji fondunun formalaşması üçün zəruri və son dərəcə aktual məsələlərdəndir. Azərbaycan dilinin hərbi terminoloji sistemi ümumtürk leksikasının əsasında yaranmışdır. Türk dillərinin leksik sisteminin əsasında isə qədim türk tayfa dilləri dayanır ki, həmin leksik sistemin tərkibi elementləri qədim türk yazılı abidələrində, xüsusilə Orxon-Yenisey kitabələrində qorunub saxlanılmaqdadır. Dilimizin ümumlüğət fondunun ayrı-ayrı tədqiqatçılar tərəfindən araşdırılmasına baxmayaraq, həmin mənbələrin türk mənşəli sözlərdən ibarət olan hərbi məzmunlu leksikası, xüsusilə, İ.Qasımovun, Y.Məmmədlinin araşdırmaları əsasında təhlil edilmişdir.

Tədqiqatın əsas məqsədi yazılı abidələrdə işlək olan hərbi məzmunlu leksikanın təhlil edilməsidir ki, bu da gələcəkdə unifikasiya kimi linqvistik zərurət hesabına dilin arxaik lüğət fondunu təşkil edən milli mənşəli leksik vahidlərə yenidən işləklik hüququ qazandıra bilər. Digər tərəfdən arxaik hərbi terminlər və aidiyyəti sahə üzrə terminoloji qat türk xalqlarının hərb və dil tarixini əks etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dilinin hərbi məzmunlu arxaik leksik fondunu öyrənməklə hərbi terminologiyanın tarixi inkişafını da izləmək mümkündür. Hərbi sahəni əhatə edən lüğət tərkibinin təhlili və arxaik fondu təşkil edən dil vahidlərinin öyrənilməsi türk xalqlarına aid dillərin quruluşunun, dialektologiyasının araşdırılması baxımından da böyük əhəmiyyət kəsb edir. Qeyd etməliyik ki, türk dövlətçiliyinin həm dil, həm də hərb tarixinin, habelə tarixi inkişafının tədqiqi bütünlükdə hərbi elmlərin tədqiq və tədrisi baxımından önəmli və vacib nüanslardandır.

Türk xalqlarının dövlətçilik tarixində hərbin rolu danılmazdır. Bu faktor onun terminoloji fondunun formalaşmasına da ciddi təsir göstərmişdir. Bu baxımdan qədim türk yazılı abidələrinin

hərbi məzmunlu zəngin leksik qatı türk xalqlarının mükəmməl döyüş anlayışını və bu anlayışlar sisteminin dil vahidləri ilə ifadəsini özündə ehtiva edir. "*Bu yazılı abidələrdə müxtəlif semantik məzmunlu hərbi anlayışları bildirən leksik vahidlərin sistemli şəkildə işlədilməsi və onların morfoloji quruluş və mənsubiyyət baxımından müxtəlifliyi sübut edir ki, türk xalqlarının döyüş qabiliyyəti, döyüş ənənələri daha qədimdən mövcud olmuş və bu prosesdə istifadə olunan müxtəlif döyüş, savaş alət və vasitələrini adlandırmaq üçün dildə onlara uyğun leksik vahidlər də yaradılmışdır*" [1, s.21].

Abidələrin leksik tərkibcə əsasını türkmənşəli sözlər təşkil etməklə kifayət qədər zəngin leksik fond formalaşmış, leksik vahidlər türk dillərinin bəzilərində öz aktiv işləkliyini uzun müddət ərzində qorumuş və hərbi məzmunlu vahidlərin əsasında söz yaradıcılığının müxtəlif üsul və vasitələri ilə dilimizin hərbi terminoloji leksikası öz təşəkkülünü tapmışdır. Qədim türk yazılı abidələrini və hərbi leksik qatın formalaşmasını özündə əks etdirən çoxlu sayda leksik vahidlər dilimizin zənginliyini bir daha təsdiqləyir. Abidələrdə işlək olan *akın* (hücum, həmlə), *atlıq* (süvari atlı), *bidküçi* (öndə gedən), *bolun* (əsir), *dil* (düşməndən alınan əsir, casus), *egir* (mühasirə), *ər//er//ir* (əsgər, döyüşçü), *ərbaşı* (qoşun başçısı), *çərik* (qoşun, ordu), *karaqu* (qaravul), *körük* (xəbərçi, casus), *görgü* (casus, şahid, bələdçi), *sunuş* (döyüş, müharibə), *sü* (qoşun, ordu), *süngü, sübaşı* (sərkərdə), *sülə // sülət, opla* (hücuma keçmək, qoşun çəkmək), *pusuq* (pusqu), *tuğ* (bayraq), *tutuq* (girov), *udiş* (qələbə), *uruş* (vuruş, savaş), *yadaq* (piyada döyüşçü), *yağı* (düşmən), *yançı* (sərkərdə), *yalmaq* (atlı döyüşçü dəstəsi), *yarak (silah), yırçı* (bələdçi), *yürüş // yuli* (hücum etmək, basqın etmək) Azərbaycan dilinin, eləcə də türk dillərinin hərbi leksikasında arxaik lüğət fondunun vahidləri kimi mühüm yer tutur.

Qədim türk yazılı abidələrindəki hərbi məzmunlu leksik vahidlər aid olduğu nitq hissəsi, quruluşu, tematik məzmunu etibarilə müxtəliflik kəsb edir. Abidələrdə işlək olan terminləri struktur etibarilə təhlil etsək, əsasən, terminlərin morfoloji üsulla formalaşdığını müşahidə etmək mümkündür. Sadə quruluşa malik bir və ya ikihecalı sözlərin üstünlük təşkil etməsinə baxmayaraq, sintaktik yolla yaranan mürəkkəb söz və ya birləşmələr də az deyil. Quruluşu etibarilə müxtəlif olan hərbi vahidlərin mürəkkəbliyi yazılı abidələrdən öncə də həmin terminlərin leksik vahid kimi varlığını təsdiqləyir. Qeyd etməliyik ki, hərbi terminologiyanın tam olaraq formalaşmadığı dövrlərdə dil vahidlərinin strukturca sadəliyi və ya ümumişlək fondun tərkibi komponenti kimi artıq sabitləşməsi danılmazdır.

Yazılı mətnlər leksik paralellərlə zəngindir. Qədim türk yazılı abidələrinin dilində bəzən bir anlayış və ya mənanın paralel olaraq bir neçə leksik vahidlə ifadəsi kimi "ordu" və "qoşun" mənalarında *çerik* və *sü*, "cəng", "savaş", "vuruş" mənalarında *atış, keriş, uruş, urma*; "bələdçi" anlamında *kılavuz, qılavuz, görçü, yerçi* kimi ekvivalentlərin varlığı türk dillərinin zəngin leksikasını və hərbi məzmunlu sözlərin leksik-semantik variantlılığını bir daha təsdiqləyir.

Qeyd etməliyik ki, mətnlərdə "qoşun" anlamlı sü proforması abidələrdən sonrakı dövrlərdə hərbi məzmunlu müxtəlif leksik vahidlərin yaranmasında yaxınmənalı çərik // çerik sözü ilə müqayisədə böyük əhəmiyyət kəsb etmişdir. Tədqiqatlar *çərik // çerik* və *sü* termini arasındakı fərqli xüsusiyyətləri *qoşun* və *ordu* sözlərinin semantikası əsasında ortaya çıxarır: "*... çərik // çerik sözü ilə nisbətən az saylı döyüşçü dəstələrinin, qoşun növünün adları bildirilirsə, sü termini ilə daha böyük birləşmənin adı ifadə olunur*" [1, s.39]. S*ülə* feilinin semantikasına da bu mövqedən çıxış edərək aydınlıq gətirmək mümkündür: Söz "hücum" mənasındadır, amma etimologiyanın əsasında "ordu, qoşun" mənası dayanır. İ.Qasımov da, leksik vahidin əsasında "irimiqyaslı hücum" mənasının olduğunu qeyd edir. Y.Məmmədli isə iddia edir ki, "*sü sıra ilə düzülmüş qoşunu, çerik isə bu sırada dayanmış əsgəri nəzərdə tutur. Sonradan sü termini öz işləkliyini itirərək /sübay sözü istisna olmaqla / yerini çerik termininə vermişdir*" [3, s.41].

Ümumtürk dillərində dialekt fərqləri kontekstində verilən bu kimi faktlar tədqiqatçı alim İ.Qasımovun diqqətini cəlb etmişdir: *"Kül tikinin şərəfinə yazılmış mətndə "dəstənin başçısı", "orduya rəhbərlik edən" (komandir) mənasında "yaraqbaşı", Tonyukukun şərəfinə yazılmış abidədə isə həmin mənanı vermək üçün "yağıçı" terminindən istifadə olunmuşdur"* [1, s.28]. Qeyd etməliyik ki, hər iki leksik vahid eyni vəzifənin adını bildirərək, ekvivalentlik təşkil etsə də,

struktur etibarilə bir-birindən fərqlənir və hərbi terminlərin semantik inkişafı, ilk növbədə, ümumtürk lüğət fondunun kontekstində izlənilir.

Qədim türk yazılı abidələrindən hesab olunan Moyun Çor abidəsində *yəlmə / yelmə* sözünə təsadüf edilir ki, "kəşfiyyatçı dəstə" mənasındadır. Karağu isə "keşikçi dəstəsi" mənasında abidələrdə işlək terminlərdəndir. Tədqiqatlarda "karağu" sözünün "qaravul" sözü üçün semantik əsas olduğu və hər iki leksik vahidin semantikasında gözlə bağlı "görmək" və "baxmaq" mənalarının dayandığı öz əksini tapır [3, s.36].

Bütün hallarda, hərbi məzmunlu leksik vahidlərin paralelliyi, habelə arxaikləşən, ümumişləklik kəsb edən, determinləşərək terminoloji fonda daxil olan terminlərin çoxluğu abidələrdə işlək olan dil vahidlərinin semantik inkişafının göstəricisidir.

Kağan sözü "Kültikin", "Tonyukuk" və "Bilgə xaqan" kitabələrində "dövlətin və qoşunun rəhbəri" mənasında işlənmişdir. *Kan* leksik vahidi isə "qırğız hökmdarı" kimi abidələrdə daha konkret mənada öz əksini tapmışdır, yəni *"*ayrı-ayrı türk tayfaları*" kan, "*bir neçə tayfa birliklərinin ümumi başçısı*" isə kağan adı ilə təqdim olunur (kağan – xanlar xanı, bir neçə xanın xanı mənasında)* [1, s.32]. Nəticə etibarilə, *kağan* daha geniş anlamda işlədilmiş, *kan* leksik vahidinin isə semantik məna çalarlığı paralel dil vahidi ilə nisbətdə daralmış, daha məhdud çərçivədə "müəyyən tayfanı idarə edən başçını" bildirmişdir. Bütün hallarda həmin vahidlərin hərbi terminologiyada istər semantik məna yükü, istərsə də söz yaradıcılığı prosesində məhsuldarlığı baxımından əhəmiyyəti böyükdür. Bu baxımdan abidələrdə bək / beg leksik vahidi ifadə olunan və müxtəlif qəbilə, habelə döyüşçü dəstələrinə başçılıq edən şəxslər (bəylər) icra etdikləri idarəçilik funksiyası baxımından diqqəti cəlb edir. Ə.Rəcəbliyə görə, "*bəy əvvəllər hərbi işlərlə əlaqədar əmələ gələn rütbə adıdır, lakin sonralar bəylərə əmlak (adam, torpaq, ilxı, mal-qara və s.) da verilmiş, həm də bəylik vərəsəlik yolu ilə keçmişdir*" [4, s.56].

Beləliklə, yazılı mətnlərdə tez-tez müşahidə olunan buyuruk *(buyruk "*dəstə rəisi" [2, s.79] *bəg* "dövlət işlərində göstəriş verən, hərbi yürüşlər zamanı ayrı-ayrı dəstə və qrupların başçısı" mənasındadır və sintaktik konstruksiyadan ibarətdir.

Ə.Rəcəbli abidələrdə ən yüksək hərbi dərəcənin *çor* [7, s.326], ondan kiçik olan hərbi rütbə *sənün // sanun* olduğunu göstərir: "*bu söz Çin dilindən götürülmüşdür, çincə "general" deməkdir. Deməli, çor generaldan böyük rütbədir: Uyğurların rəhbəri Peylo basmıllara hücum edib onları darmadağın edir, basmıllarm rəhbəri Sede İşi xaqanın başını kəsir, Çinin paytaxtı Çanan şəhərinə göndərib xahiş edir ki, imperator onun Kutluğ Bilge Kül çor rütbəsini qəbul etsin*" [5, s.22]. Tədqiqatçıya görə, "*çor ən böyük hərbi rütbədir, müasirləşdirsək, marşala bərabərdir*" [6, s.248]. Ə.Rəcəbli tədqiqatlarında belə qənaətə gəlir ki, "*Dövlətin daxili əyalətlərini idarə edən adam içrəki, güman ki, işğal edilmiş əyalətləri idarə edən adam tutuk adlanır*" [4, s.56-57].

Qədim türk yazılı abidələrində titul, vəzifə, rütbə bildirən leksik vahidlərin zəngin semantik məna çalarlıqları hərbi nöqteyi-nəzərdən türklərin mükəmməl döyüş ənənələrinə malik olduğunu və türk dillərinin hərbi terminologiyasının leksik tərkibcə artıq abidələrə qədər tamamilə formalaşdığını bir daha təsdiqləyir. Ümumiyyətlə titul, hərbi vəzifə və rütbə bildirən sözlər insan cəmiyyəti yaranan gündən aktual olmuş, formalaşma etibarilə daha qədim dövrü əhatə etmişdir. Tədqiqatlarda titul adlarının vəzifə və rütbə adları ilə nisbətdə daha əvvəl yarandığı və bu faktorun hərbi terminologiyanın formalaşmasındakı xüsusi rolu öz əksini tapır: "*Cəmiyyətdə fərqlənən, öz xüsusi vəzifələri ilə seçilən müəyyən təbəqəyə aid insanlar sonralar müharibələrdə də seçilmiş, öz fəaliyyətləri və döyüşçü dəstələrindəki rolu ilə fərqlənmişlər. Ona görə də qədim türk dillərində titul adları hərbi vəzifə və rütbə adlarından əvvəl yaranaraq, sonrakı dövrlərdə müharibələrin daimi xarakter daşıması ilə əlaqədar olaraq hərbi vəzifə və rütbə adlarının da formalaşmasında əsas rol oynamışdır*" [1, s.31].

Abidələrdə, ümumiyyətlə, hərbi titul və rütbə bildirən leksik vahidlərin üstünlüyü, bu nüansın müxtəlif faktorlarla əlaqədar olduğu ehtiva olunmuşdur: "*Bu abidələrdə daha fəal işlədilən isə hərbi titul və rütbə adlarıdır ki, qədim türklər döyüşdə, cəng meydanında fərqlənənlərə bu adları verməklə və hər birinin üzərinə müəyyən savaş tapşırıqlarını yerinə yetirmək vəzifəsi qoymaqla onların ruhlandırılmasına, müasir anlamla ifadə etsək, hərbi vətənpərvərlik hisslərinin yüksəldilməsinə çalışmışlar"* [1, s.23].

Qeyd etməliyik ki, *apa, alpağu / alpağut, apıt, ər, ərən, ergin, xaqan, tarkan, on tutuk* kimi rütbə, vəzifə və titul adları türk dillərinin əksəriyyətində ya olduğu kimi, ya da cüzi dəyişikliklərlə işlənmiş, həm işləklik dərəcəsi, həm də semantik xüsusiyyətləri etibarilə də fərqlənmişdir. *Alp* sözü isə hərbi leksikada yalnız nominativ xarakterdə deyil, həm də döyüşçünün sosial-mənəvi keyfiyyətlərinin ifadəsinə xidmət etmiş, qədim türk mətnlərində "igid", "cəsur", "döyüşçü" mənaları ilə bağlı işlənmişdir. Deməli, sözün semantikasında hərbi fəaliyyətlə yanaşı, qəhrəmanlıq və sosial nüfuz anlayışları da ehtiva olunmuşdur. Söz yaradıcılığı prosesində məhsuldarlığı ilə seçilmiş dil vahidi hərbi fəaliyyət baxımından digər müxtəlif anlayışların yaranmasında iştirak etmişdir.

Abidələrdə lüğət tərkibinin aktiv vahidlərindən hesab olunan *tıl // til* "əsir" mənasını ifadə etsə də, tədqiqatçılara görə, sözün etimologiyasının əsasında "dil", yəni "danışmaq qabiliyyəti, nitq" mənası dayanır və nəticədə leksik vahid "məlumat verən", "məlumatı ötürən" anlamında semantik üsulla omonimləşən sözlərdəndir və bu cür sözlər morfoloji üsulla yaranan vahidlərlə müqayisədə abidələrdə həm də kəmiyyət etibarilə az olması ilə seçilir.

Yazılı abidələrdə "məsləhətçi" anlamında işlənən a*yğuçı // ayguçu* sözünün "demək, söyləmək" anlamındakı ay//ayt(maq) sözündən olmaqla "kağanın yanında olaraq müxtəlif hərbi məsələlər, hərbi xarakterli problemlər barədə məsləhət verən" mənasında işlənməsi güman edilir. Leksik vahid abidələrdə məhsuldarlığı ilə fərqlənən, peşə və sənət anlamını ehtiva edən -çı şəkilçisi vasitəsilə düzələn və vəzifə (rütbə) bildirən çoxsaylı sözlərdəndir.

Qədim türk yazılı abidələrində təkcə semantik və morfoloji söz yaradıcılığı vasitəsilə deyil, həm də sintaktik yolla düzələn hərbi terminlər diqqəti cəlb edir: Abidələrin dilində struktur etibarilə mürəkkəb quruluşa malik və *baş* (nüvə) sözü ilə düzələn *ərbaşı* (əsgərlərin başçısı), *sübaşı* (yüksək hərbi rütbə) kimi leksik vahidlər həm də işləkliyinə görə fərqlənir. Hərbi məzmunlu sintaktik konstruksiyalarda nüvə söz funksiyasındakı *baş* mənanın konkretləşməsinə xidmət etməklə, abidələrin dilində mürəkkəb və ya söz birləşmələrinin komponenti kimi müvafiq sözlərə qoşularaq kəmiyyət çalarının formalaşmasında rol oynayır: "*Baş sözü abidələrin dilində, əsasən nominativlik ifadə edir və birləşdiyi sözün köməyilə ifadə etdiyi "başçı, komandir" mənaları dəqiqləşdirilir, hərbi termin kimi onların definitivliyi aydın şəkildə nəzərə çarpdırılır. Baş sözünə birləşən ər, on, yüz, min, sü sözləri başçının, komandirin hansı əsgəri hissəyə rəhbərlik etməsini, onun səlahiyyət dərəcəsini müəyyənləşdirməyə kömək edir*" [1, s.36]. Beləliklə, "min nəfərlik ordunun başçısı" kimi *bina başı*, "yüz nəfərlik birləşmənin başçısı" anlamındakı *yizək başı* sintaktik konstruksiyalarında qoşunun tərkibcə kəmiyyəti əsas semantik məzmun olaraq öz əksini tapmışdır. Digər tərəfdən abidələrdə diqqəti cəlb edən məqamlardan biri terminlərin nominativ xarakter daşıması ilə əlaqədar substantivləşməsi və daha çox adlardan ibarət olmaqla determinləşərək terminologiyanın formalaşmasına rəvac verməsidir. Belə ki, kiçikdən böyüyə kimi müxtəlif sayda döyüşçülərdən ibarət dəstələri bildirən, məsələn: tümən (on minlik döyüşçünü birləşdirən qoşun növü), bina // binə (min nəfəri birləşdirən qoşun növü) kimi terminlər vardır.

Qoşun növləri ilə bağlı digər terminlər öz semantik məzmununda dəstələrin piyada və atlılardan təşkil olunduğunu və ya döyüş tapşırığına görə fərqliliyi ehtiva edir. Piyada qoşun "*yadaq*", süvari "*atlı/atlıq*" sözləri ilə ifadə olunur. İ.Qasımova görə, dil vahidlərinin etimologiyasının əsasında at və yalın sözləri dayanır [1, s.40]. Bu məqamda Y.Məmmədlinin mülahizələri daha inandırıcı olmaqla, qədim türk abidələrinin dili üçün səciyyəvi olan yadağ sözünün türkmənşəli "ayaq" mənasındakı adak/adaq/adağ fonetik variantlarından törəməsi və "ayaqla gedən" mənasını verməsini ifadə edir [3, s.102].

Abidələrdə döyüş əməliyyatları və hücum növlərini fərqləndirən terminlər işlək olub, leksik-semantik xüsusiyyətlərinə görə fərqlənir: "Vuruş", "savaş" mənalarındakı *sünüs // sünüş* və *uruş*, "hücum" mənasındakı *sülə, opla, bas, təg, yelmə, akınla* semantik məna çalarları ilə diqqəti cəlb edir. *Sülə* -lə şəkilçisi ilə adlardan düzələn düzəltmə feil olub, qoşun anlayışını özündə ehtiva etməklə "qoşun çəkib qənimət əldəetmə" mənasında abidələrin işlək leksik vahidlərindən olmuşdur. *Opla, bas (maq), təg(mə)* "düşməni qəfil yaxalama üçün hücum etmək", *akınla* "kütləvi hücumetmə" mənalarında işlənmişdir. Bununla yanaşı, abidələrdə *bağa, çıkan, eltəbər, işbara,*

yançı kimi titul, hərbi vəzifə bildirən leksik vahidlərin çoxluğu türk xalqlarının ordu quruculuğunda funksionallığın aidiyyəti terminlər vasitəsilə ifadəsinə xidmət edir.

Abidələrdə linqvistik nöqteyi-nəzərdən diqqəti cəlb edən məqamlardan biri də determinləşmiş və ümumişlək leksik fondun dil vahidləri kimi çıxış edən sözlərin üstünlük təşkil etməsidir. Qeyd etməliyik ki, araşdırmalara görə, *çavuş, ər, ərən, ox, yağı, yaraq, uruş* kimi hərbi məzmun kəsb edən sözlər yazılı abidələrdən öncəyə aid olmaqla, semantik məzmun və sabitliyini qoruyub saxlayan dil vahidləri hesab olunur. Hətta uzun tarixi dövr ərzində işlək olan bu və ya digər terminlər bəzi fonetik və ya semantik dəyişikliklərlə hazırkı müasir hərbi terminologiya ilə səsləşir. Digər tərəfdən, abidələrdə vaxtilə öz aktiv işləkliyini qoruyan terminlər arxaik leksik qatı təşkil etsə də, Azərbaycan dilinin hərbi leksikasının formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, qədim türk yazılı abidələri arxaik hərbi leksikanın əsasını təşkil etməklə hərbi, linqvistik və tarixi əhəmiyyətə malikdir.

Nəticə: Ümumtürk kontekstində hərbi məzmunlu terminoloji fondun tarixən formalaşma dövrü digər terminoloji sahələrlə müqayisədə daha qədim çağlara aiddir. Qədim türk yazılı abidələri hərbi məzmunlu leksikanın əsasını təşkil etməklə müxtəlif semantik məna çalarlarına və struktura malik dil vahidlərini formalaşdırır. Abidələrin dilində xeyli hərbi terminlərin paralelliyi, müxtəlif struktura malik terminlərin işləkliyi diqqəti cəlb edir. Qədim yazılı abidələrdə hərbi məzmun kəsb edən sözlərin, demək olar ki, əksər mənbələrdə bu və ya digər fonetik şəkillərdə və semantik məna çalarlarında işlənməsi hərbi leksik fondun zənginliyi ilə bərabər türk xalqlarının mükəmməl döyüş ənənələrinə sahib olduğunu sübut edir.

Araşdırmalar göstərir ki, leksik vahidlərin bir qismi tarixi hərbi anlayışa çevrilir, bəzi sözlər isə ümumişlək və ya bədii-poetik məna çalarları qazanır. Bu baxımdan Azərbaycan hərbi leksikasının tədqiqi yalnız müasir hərbi terminologiyanın təsviri ilə məhdudlaşdırılmamalıdır. Onun tarixi qatlarının, xüsusilə qədim türk mənşəli vahidlərin yazılı mənbələr üzrə öyrənilməsi Azərbaycan dilinin milli leksik sisteminin formalaşmasına imkan verir.

Ədəbiyyat siyahısı

1. Qasımov İ.Z. Azərbaycan dilində hərbi terminoloji leksikanın təşəkkülü və inkişafı // İ.Z. Qasımov. – Bakı: Nurlan, – 2001. – 95 s.

2. Xudiyev N. Qədim türk yazılı abidələrinin dili // N.Xudiyev. – Bakı: Elm və təhsil, – 2015. – 596 s.

3. Məmmədli Y. Azərbaycan dilinin hərbi leksikası // Y.Məmmədli. Bakı: Universiteti Nəşriyyatı, – 1997. – 132 s.

4. Rəcəbli Ə. Qədim türk yazısı abidələri // Ə.Rəcəbli. 4 cilddə. I cild, Göytürk abidələri. I hissə. – Bakı; Nurlan, – 2009. – 568 s.

5. Rəcəbli Ə. Qədim türk yazısı abidələri // Ə.Rəcəbli. 4 cilddə, III cild. Qədim uyğur yazısı abidələri, I hissə. – Bakı: Elm və təhsil, – 2010. – 664 s.

6. Rəcəbli Ə. Qədim türk yazısı abidələrinin dili // Ə.Rəcəbli. II hissə. Bakı: Nurlan, – 2006. – 480 s.

7. Rəcəbli Ə. Qədim türk yazısı abidələri // Ə.Rəcəbli. 4 cilddə, IV cild. Qədim uyğur yazısı abidələri, II hissə. – Bakı: Elm və təhsil, – 2010. – 500 s.

Кёнуль Садыгова

Формирование военной лексики азербайджанского языка и древнетюркские письменные памятники

Аннотация

Терминологическая система азербайджанского языка непрерывно развивается за счет пополнения новыми лексическими единицами, следуя в ногу с научно-техническим прогрессом и общественным развитием. Языковые процессы — как внутренние, так и внешние – приводят к возникновению и распространению новых языковых единиц, их

закреплению в качестве терминов, а также к постепенному переходу существующих лексических единиц в разряд архаизмов. В любом случае архаические единицы составляют основу любого лексического пласта или терминологической системы. В данной статье рассматривается архаический пласт, лежащий в основе военной терминологии азербайджанского языка (в контексте богатой лексики древнетюркских письменных памятников), и анализируются языковые единицы, обозначающие военные понятия. В рамках военного лексического пласта этих памятников понятия, охватывающие различные сферы – такие как рода войск, воинские звания, должности и титулы, – претерпели фонетические и семантические изменения на протяжении длительного исторического развития. Некоторые термины, встречающиеся в этом архаическом пласте, характерны и для современной лексики азербайджанского и других тюркских языков, поскольку они на протяжении долгого времени сохраняли свою функцию в качестве военных терминов. Несмотря на то, что часть языковых единиц военной тематики перешла в разряд архаизмов, они сыграли важную роль в процессах словообразования и способствовали обогащению терминологического фонда.

Ключевые слова: *военная терминология, письменные памятники, языковая единица, семантическое значение, воинское звание.*

Konul Sadigova

The formation of the military vocabulary of the Azerbaijani language and ancient turkic written monuments

Abstract

The terminological system of the Azerbaijani language is constantly evolving through the addition of new lexical units, keeping pace with the scientific and technological progress and development occurring in society. Linguistic processes – both internal and external to the language –lead to the emergence and popularization of new linguistic units and their establishment as terms, as well as the eventual archaization of existing lexical units. In any case, archaic units form the foundation of any lexical stratum or terminology. This article examines the archaic stratum that underpins the military terminological system of the Azerbaijani language – viewed against the backdrop of the rich vocabulary found in ancient Turkic written monuments – and analyzes linguistic units conveying military concepts. Within the military lexical stratum of these monuments, concepts spanning various themes – such as military branches, ranks, positions, and titles – have undergone phonetic and semantic changes over a long historical period of development. Certain terms found in this archaic lexical stratum are characteristic of the modern vocabulary of both Azerbaijani and other Turkic languages, having retained their functionality as military terminological units for a long time. Although some military-related linguistic units have become archaic, they played a role in word-formation processes and contributed to the enrichment of the terminological stock.

Keywords: *military terminology, written monuments, linguistic unit, semantic meaning, rank.*

Çapa tövsiyə edən: MMU Hərbi Elmi Tədqiqat İnstitutu

Rəyçilər: fil.ü.f.d., Xədicə Qaraqurbanlı
fil.ü.f.d. A.Hüseynova-Qəhrəmanlı